# Macarıstan və Ukrayna mediası ADA Universitetinin Xankəndi və Bakıda keçirdiyi beynəlxalq forumdan yazıb










Macarıstanın ən geniş oxucu auditoriyasına malik olan ingilisdilli "Daily News Hungary" nəşri Bakıda ADA Universitetinin təşkilatçılığı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum haqqında material dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə bu mötəbər tədbirin missiyası və məqsədləri haqqında məlumat verilir. Materialda builki forumda dörd macar ekspertinin - Laşpo Vaşa, Şandor Şeremet, İştvan Kiş və Zoltan Eqereşinin iştirak etdikləri diqqətə çatdırılır. Onlar müxtəlif akademik institutları və beyin mərkəzlərini təmsil edirlər. Nəşrə müsahibə verən L.Vaşa qeyd edib ki, keçirilən forumun iştirakçıları arasında olmaq, Qarabağa səfər etmək və Prezident İlham Əliyevin çıxışına qulaq asmaq onun üçün faydalı bir imkan olub.

Ukraynanın aparıcı kütləvi informasiya vasitələri ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışına geniş yer ayırıb.

"RBK-Ukrayna", "Senzor", "Korrespondent", "24tv.ua" və digər media orqanlarında dərc edilən məqalələrdə Prezident İlham Əliyevin Ukrayna-Rusiya müharibəsinin tənzimlənməsinə dair fikirləri işıqlandırılıb.

Məqalələrdə dövlətimizin başçısının çıxışına istinadla yazılır ki, real dünyada müharibələr yalnız tərəflərdən biri təslim aktı imzaladıqdan sonra sona çatır. "Atəşkəs rejimi" ancaq yenidən toparlanmaq, səfərbər olmaq və hər şeyi yenidən başlamaq üçün lazımdır.

"Şəxsən mən realist olaraq, yaxın gələcəkdə Ukrayna ilə Rusiya arasında sülh üçün hər hansı perspektivi görmürəm", - deyə məqalələrdə Prezident İlham Əliyevin sitatı qeyd olunub.

Yazılarda Azərbaycan Prezidentinin fikirlərinə istinadla bildirilir ki, Rusiya işğal olunmuş əraziləri Rusiyanın bir hissəsi kimi bəyan edib. Onlar bundan necə geri çəkilə bilərlər? Ukrayna, o cümlədən bütün dünya həmin işğal olunmuş əraziləri Ukraynanın hissəsi hesab edir. Azərbaycan da onları Ukraynanın hissəsi hesab edir. Onda necə qurban verə bilər və deyə bilər ki, ərazilər Ukraynanın deyil?

"Əgər bu baş verərsə, onda belə çıxır ki, mən beynəlxalq siyasətdə nəyi isə başa düşmürəm. Əfsuslar olsun ki, müharibələr yekun kapitulyasiya aktı olanda bitir", - deyə məqalələrdə Azərbaycan Prezidentinin sitatı vurğulanıb.

Azərbaycan.- 2025.- 13 aprel (№ 72).- S.3.